# Azərbaycan – Rumıniya münasibətləri

Azərbaycanla Rumıniya arasında siyasi, iqtisadi, elmi, təhsil, mədəni və digər sahələrdə əlaqələr yüksələn xətlə inkişaf edir, qarşılıqlı yüksək səviyyəli və digər səfərlər həyata keçirilir.

Azərbaycanla Rumıniya arasında dostluq əlaqələrinin hələ XV əsrdən başlayan tarixi kökləri mövcuddur. 1473-cü ildə Ağqoyunlu dövlətinin başçısı Uzun Həsənlə Böyük Ştefan arasında müttəfiqlik haqqında müqavilə bağlanmışdır. Azərbaycan Demokratik Respublikasının müdafiə naziri S.Mehmandarov rus ordusunda fəaliyyəti zamanı Rumıniya ordeni ilə təltif olunmuş, həmin Respublikanın ideoloqu M.Ə.Rəsulzadə II Dünya müharibəsi zamanı Buxarestdə yaşamışdır. Rumıniyanın Xəzər regionu ölkələri, xüsusən Azərbaycanla davamlı və uzunmüddətli əməkdaşlığın və tərəfdaşlığın yaradılması strategiyasını Azərbaycan yüksək qiymətləndirir.

## Yüksək səviyyəli səfərlər

**2 iyul 1995-**ci ildə Azərbaycan Prezidenti H.Əliyev Rumıniyaya rəsmi səfər etmişdir.
**1996-cı ilin** mart ayında Rumıniya Prezidenti İ.İliyesku Azərbaycana rəsmi səfər etmişdir.
**29 iyun - 1 iyul 1998-**ci ildə Rumıniya Prezidenti E.Konstantinesku Azərbaycanda rəsmi səfərdə olmuşdur.
**7-8 sentyabr 1998-ci** ildə tarixi İpək Yolunun bərpasına həsr olunmuş beynəlxalq konfransda Rumıniya Prezidenti E.Konstantineskunun başçılıq etdiyi nümayəndə heyəti iştirak etmişdir.
**29-30 oktyabr 2002-ci** ildə Rumıniya Prezidenti İ.İliyeskunun rəhbərliyi ilə nümayəndə heyəti Bakıda rəsmi səfərdə olmuşdur.
**18 mart 2004-cü** ildə Azərbaycanın Prezidenti İ.Əliyev Slovakiya Respublikasında keçirilən "Daha geniş Avropaya istiqamət: yeni gündəlik" mövzusunda beynəlxalq konfrans zamanı Rumıniyanın Baş Naziri A.Nastase ilə görüşmüşdür.
**11-12 oktyabr 2004-**cü ildə Azərbaycan Prezidenti İ.Əliyev Rumıniyaya rəsmi səfər etmişdir. Görüşlər zamanı Azərbaycan ilə Rumıniya arasında ikitərəfli əlaqələrin perspektivləri, regional əməkdaşlıq, beynəlxalq məsələlər ətrafında geniş müzakirələr aparılmışdır. Prezident İ.Əliyev və Rumıniya Prezidenti İ.İliyesku Buxarestin 8 May parkında xalqımızın ümummilli lideri Heydər Əliyevin büstünün təntənəli açılış mərasimində iştirak etmişlər. Səfər zamanı iki ölkə arasında 11 sənəd imzalanmışdır.
**22 aprel 2005-ci ildə** Kişineuda keçirilən GUÖAM sammiti çərçivəsində Azərbaycan Prezidenti İ.Əliyev Rumıniyanın prezidenti T.Basesku ilə görüşmüşdür.

**5 iyun 2006-cı ildə** Buxarest şəhərində keçirilən “Qara Dəniz Forumu”nda iştirak etmək məqsədilə Rumıniya Prezidenti T.Baseskunun dəvəti ilə AR Prezidenti İ.Əliyev Rumıniyada səfərdə olmuşdur.
**11-12 oktyabr 2006-cı** il tarixlərində Rumıniya Prezidenti T.Basesku Azərbaycanda rəsmi səfərdə olmuşdur.
**19 iyun 2007-ci il tarixində** Rumıniyanın prezidenti T.Basesku GUAM sammitində iştirak etmək üçün Azərbaycana səfər etmiş və Prezident İ.Əliyevlə görüşmüşdür.
**24-25 sentyabr 2007-ci** il tarixlərində Azərbaycan Respublikasının Prezidenti cənab İ.Əliyev Rumıniyada işgüzar səfərdə olmuşdur. Səfər çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev Rumıniyanın Prezidenti T.Basesku ilə görüşmüş, Heydər Əliyev Fondunun Rumıniyadakı Nümayəndəliyinin və “Tey Parkı - Heydər Əliyev Xiyabanının” açılış mərasimlərində iştirak etmişdir.
**2-4 aprel 2008-ci ildə** AR Prezidenti İ.Əliyev NATO-nun Buxarest Sammitində iştirak etmək üçün Rumıniyaya səfər etmişdir.
**21 avqust 2008-ci ildə** Rumıniyanın Prezidenti T.Basesku Bakıda bir günlük işgüzar səfərdə olmuşdur.
**28-29 sentyabr 2009-cu ildə** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rumıniyada rəsmi səfərdə olmuşdur. Səfər zamanı Azərbaycan Prezidenti İlham Əliyev və Rumıniya Prezidenti Trayan Besesku arasında təkbətək görüşü olmuşdur. Görüşdə Azərbaycan və Rumıniya arasında siyasi, iqtisadi və digər sahələrdə əməkdaşlığın uğurlu inkişafından danışılmışdır. Həyata keçirilən yüksək səviyyəli səfərlərin ikitərəfli əlaqələrin inkişafına təkan verdiyi vurğulanmışdır. Enerji sahəsində davam edən əməkdaşlığın geniş perspektivləri olduğu bildirilmişdir. Görüşdə ikitərəfli, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır. Danışıqlar başa çatdıqdan sonra 4 ikitərəfli sənəd və “Azərbaycan Respublikası və Rumıniya arasında strateji tərəfdaşlığın yaradılması razılaşması haqqında Birgə Bəyannamə” imzalanmışdır.
Səfər çərçivəsində Azərbaycan Prezidenti Rumıniyanın Baş naziri Emil Bok, Senatının sədri Mirçea Ceoana, Deputatlar Palatasının sədri Roberta Anastase ilə görüşmüşdür.
**14 sentyabr 2010-cu ildə** Bakıda keçirilmiş AGRİ sammitində iştirak etmək məqsədilə Rumıniya Prezidenti T.Basesku Azərbaycanda işgüzar səfərdə olmuşdur.
**18-19 aprel 2011-ci ildə** Rumıniyanın Prezidenti T.Basesku Azərbaycanda rəsmi səfərdə olmuşdur.

**Parlamentlərarası əlaqələr**

**5 noyabr 2000-**ci ildə Azərbaycanın yeni seçilmiş Parlamentində Azərbaycan-Rumıniya parlamentlərarası dostluq qrupu yaradılmışdır.

**11-14 iyun 2000-ci** ildə Rumıniya Senatının Xarici siyasət komissiyasının sədri G.Prisakarunun başçılığı ilə Senatın nümayəndə heyəti Azərbaycanda səfərdə olmuşdur.
**18-20 dekabr 2006-**cı il tarixində Milli Məclisin sədri O.Əsədov Rumıniyaya rəsmi səfər etmiş, Rumıniya Senatının sədri N.Vakaroyu, Deputatlar Palatasının sədri B.Oltyanu, Baş nazirin müavini B.Marko, NATO Parlamentlərarası Assambleyasının sədr müavini M. Lupoi ilə görüşmüşdür.
**18-20 iyun 2008-ci ildə** Azərbaycan Respublikası Parlamentinin 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə Rumıniya Senatının sədri Nikolae Vakaroyunun başçılıq etdiyi geniş tərkibli nümayəndə heyəti iştirak etmişdir.

***Sahələr üzrə əməkdaşlıq:***

**Siyasi sahədə**

**1-2 mart 2001-ci ildə** Rumıniyanın xarici işlər naziri M.D.Coana ATƏT-in fəaliyyətdə olan sədri qismində Cənubi Qafqaz bölgəsinə, o cümlədən Azərbaycana səfər etmişdir.
**2-3 dekabr 2001-ci ildə** Azərbaycanın xarici işlər naziri V.Quliyev Buxarestdə keçirilmiş ATƏT-in Xarici İşlər Nazirlərinin görüşündə iştirak etmişdir.
**27-30 may 2003-cü** ildə Azərbaycan Respublikasının xarici işlər naziri V.Quliyev Rumıniyanın xarici işlər naziri M.Coananın dəvəti ilə Rumıniyaya rəsmi səfər etmişdir.
**3-4 fevral 2005-ci ildə** Azərbaycan ilə Rumıniya arasında ikitərəfli müqavilə-hüquq bazasının vəziyyəti ilə əlaqədar müxtəlif nazirliklərin nümayəndələrinin iştirakı ilə Bakıda XİN-lərarası məsləhətləşmələr keçirilmişdir. Azərbaycan ilə Rumıniya arasında imzalanmış sənədlərin Avropa İttifaqının qanunvericiliyinə uyğunlaşdırılması ilə bağlı qarşı tərəf təkliflərini təqdim etmişdir.
**4 fevral 2005-ci** ildə Rumıniya Xarici İşlər Nazirliyinin hüquq idarəsinin baş direktoru K.Dinesku, Rumıniyanın Azərbaycandakı Səfiri N.Ureke xarici işlər nazirinin müavini X.Xələfov ilə Xəzər dənizinin statusu ilə bağlı görüşmüşlər.
**26 sentyabr 2007-ci ildə** Azərbaycan Respublikasının xarici işlər naziri E.Məmmədyarov BMT Baş Assambleyasının ümumi müzakirələrində iştirak etmək məqsədilə Nyu-Yorka səfəri çərçivəsində Rumıniyanın Xarici İşlər Naziri A.Çoroyanu ilə görüşmüşdür.
**10-11 mart 2008-ci ildə** XİN müavini X.Xələfov siyasi məsləhətləşmələr keçirmək üçün Buxarestə səfər etmişdir. Səfər çərçivəsində 11 mart tarixində Buxarestdə Rumıniya Xarici İşlər Nazirliyinin dövlət katibi Radutsa Dana Matake ilə görüşmüşdür.
**14-15 noyabr 2008-ci ildə** Rumıniyanın xarici işlər naziri Lazar Komanesku Bakıda keçirilən Enerji Sammitində iştirak etmək məqsədilə Azərbaycana gəlmiş və səfər

çərçivəsində Azərbaycan Respublikasının xarici işlər naziri E.Məmmədyarovla görüşmüşdür.

**22 oktyabr 2009-cu ildə** Rumıniya xarici işlər nazirinin müavini Boqdan Mazuru QDİƏT ölkələrinin Xarici İşlər Nazirlərinin Şurasında iştirak etmək üçün Bakıda səfərdə olmuşdur.

**18 mart 2010-cu ildə** Rumıniyanın xarici işlər naziri Teodor Bakonski Azərbaycana rəsmi səfər etmişdir. Səfər çərçivəsində qonaq Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev tərəfindən qəbul edilmiş, AR Baş naziri A.Rasizadə, Milli Məclisin Sədri O.Əsədov, xarici işlər naziri E.Məmmədyarov və sənaye və energetika naziri N.Əliyev görüşmüş və müxtəlif sahələrdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında geniş müzakirələr aparılmışdır.

**7 iyul 2010-cu ildə** Rumıniya Xarici İşlər Nazirliyinin Regional Əməkdaşlıq İdarəsinin baş direktoru xanım İrina Zidaru Bakıda keçirilmiş ikitərəfli məsləhətləşmələrdə iştirak etmək məqsədilə ölkəmizə səfər etmişdir. Səfər zamanı qonaq AR xarici işlər və sənaye və energetika nazirləri, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici əlaqələr şöbəsinin müdiri ilə görüşlər keçirtmişdir.

**19 iyul 2010-cu ildə** xarici işlər naziri E.Məmmədyarov Rumıniyanın xarici işlər naziri T.Bakonski ilə Heydər Əliyev adına Beynəlxalq Hava Limanının VİP salonunda görüş keçirmişdir.

**09-10 oktyabr 2012-ci ildə** Azərbaycan Respublikasının Xarici İşlər Nazirinin müavini cənab Araz Əzimov Rumıniyada səfərdə olmuşdur. Səfər zamanı Rumıniya senatorlar palatasının xarici siyasət komitəsinin sədri Mirçea Ceoana, Xarici İşlər Nazirliyində dövlət katibi (Nazir müavini) Boqdan Auresku, Rumıniya Prezidentinin təhlükəsizlik məsələləri üzrə müşaviri Yulian Fota və strateji, təhlükəsizlik və xarici siyasət məsələləri üzrə müşaviri Yulian Kifu ilə görüşlər keçirmişdir.

***Siyasi sahədə əsas sazişlər:***

1. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi ilə Rumıniya Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Protokol. Bakı, 27 aprel 1995

2. Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında Niyyət Memorandumu. Bakı, 27 aprel 1995

3. Azərbaycan Respublikası və Rumıniya arasında dostluq və əməkdaşlıq münasibətləri haqqında Bəyannamə. Buxarest, 2 iyul 1995

4. Azərbaycan Respublikası və Rumıniya arasında dostluq münasibətləri və əməkdaşlıq haqqında Müqavilə. Bakı, 27 mart 1996

5. Azərbaycan Respublikası və Rumıniya arasında dostluq münasibətlərinin və tərəfdaşlığın inkişafı haqqında Bəyannamə. Bakı, 30 iyun 1998

6. Azərbaycan Respublikası və Rumıniya arasında tərəfdaşlıq haqqında Bəyannamə. Bakı, 29 oktyabr 2002

7. Azərbaycan Respublikası Prezidentinin və Rumıniya Prezidentinin Birgə Bəyannaməsi. Buxarest, 11 oktyabr 2004;
   **Azərbaycan Respublikasının 842-IIQ saylı, 4 mart 2005-ci il tarixli Qanunu ilə təsdiq edilmişdir.**

8. Azərbaycan Respublikası Prezidentinin və Rumıniya Prezidentinin Birgə Bəyannaməsi. Bakı, 11 oktyabr 2006

9. Azərbaycan Respublikası və Rumıniya arasında strateji tərəfdaşlığın yaradılması razılaşması haqqında Birgə Bəyannamə. Buxarest, 28 sentyabr 2009

10. Azərbaycan Respublikası və Rumıniya arasında strateji tərəfdaşlığın yerinə yetirilməsi üçün Birgə Fəaliyyət Planı, 18 aprel 2011, Bakı.

11. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Rumıniyanın Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq Protokolu, 18 aprel 2011, Bakı, **AR Prezidentinin 450 nömrəli, 7 iyun 2011-ci il tarixli Fərmanı ilə təsdiq edilmişdir.**

**İqtisadi sahədə əməkdaşlıq**

**7-8 oktyabr 2004-**cü ildə Buxarestdə Azərbaycan Respublikası Hökuməti ilə Rumıniya Hökuməti arasında ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə Müştərək Komissiyanın birinci iclası keçirilmişdir.
**5-8 oktyabr 2005-ci** ildə Azərbaycan Respublikasının Sahibkarlar Təşkilatları Milli Konfederasiyasının Prezidentinin dəvəti ilə bir qrup rumın iş adamı Azərbaycanda işgüzar səfərdə olmuşdur.
**7-10 mart 2007-ci** il tarixlərində Rumıniyanın Avropa İqtisadi və Sosial məsələlər Komissiyasının üzvü M.Opran Azərbaycana səfər etmiş, Azərbaycan və Türk Diaspor Təşkilatları Rəhbərlərinin I Forumunda iştirak etmişdir.
**11-15 iyul 2007**-ci il tarixlərində ARDNŞ-ın prezidenti R.Abdullayev Rumıniyaya səfər etmiş, Rumıniyanın Prezidenti, iqtisadiyyat və maliyyə nazirinin birinci müavini, “Petrom” şirkətinin İcraçı Baş Direktoru ilə görüşlər keçirmişdir. 12 iyulda ARDNŞ-nin Rumıniyadakı nümayəndəliyinin açılışı olmuşdur.
**22-24 oktyabr 2007-ci ildə** AR Dövlət Əmlakının İdarə edilməsi üzrə Dövlət Komitəsinin sədri K.Həsənovun rəhbərlik etdiyi nümayəndə heyəti Rumıniya Dövlət

Əmlakının Qiymətləndirilməsi üzrə Dövlət Agentliyinin sədri T.Atanasiunun dəvəti ilə Rumıniyaya səfər etmişdir.

**26 oktyabr 2007-ci** ildə Rumıniya Prezidenti T.Basesku Buxarestdə işgüzar səfərdə olan Azərbaycan Dövlət Neft Şirkətinin Prezidenti R.Abdullayevi qəbul etmişdir.

**10-12 dekabr 2007-ci** ildə Rumıniya nümayəndə heyəti enerji sahəsində əməkdaşlığı müzakirə etmək məqsədilə Azərbaycana səfər etmişdir. Nümayəndə heyətinə Rumıniyanın iqtisadiyyat və maliyyə nazirinin dövlət katibi Viorel Palaşka rəhbərlik etmişdir. Nümayəndə heyətinə sənaye və energetika sahəsində mütəxəssislər, Pan-Avropa İxrac Neft Kəməri layihəsində iştirak edən şirkətlərin nümayəndələri daxil edilmişdir.

**10-12 mart 2008-ci** ildə sənaye və energetika naziri N.Əliyev Rumıniyaya səfər etmişdir. Səfər çərçivəsində, 12 mart 2008-ci ildə iki ölkənin nazirlikləri arasında əməkdaşlıq haqqında Saziş imzalanmışdır.

**21 aprel 2008-ci ildə** Buxarest şəhərində, Azərbaycan Respublikası Hökuməti ilə Rumıniya Hökuməti arasında elmi-texniki əməkdaşlıq və ticarət-iqtisadi əlaqələr üzrə Müştərək Komissiyanın üçüncü iclası keçirilmişdir.

**1-3 iyul 2009-cu ildə** Rumıniyanın iqtisadiyyat naziri A.Videanu hökumətlərarası müştərək komissiyanın 4-cü iclasında iştirak etmək məqsədilə Azərbaycanda səfərdə olmuşdur. Səfər çərçivəsində qonaq Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev tərəfindən qəbul edilmiş, AR Baş naziri A.Rasizadə, xarici işlər naziri E.Məmmədyarov, sənaye və energetika naziri N.Əliyev və ARDNŞ-nin Prezidenti R.Abdullayevlə görüşmüş və enerji sahəsində qarşılıqlı maraq doğuran məsələlər ətrafında geniş müzakirələr aparılmışdır.

**1-4 fevral 2010-cu ildə** Rumıniya İqtisadiyyat, Ticarət və Biznes Mühiti Nazirliyinin dövlət katibi T.Şerban Azərbaycana səfər etmişdir. Səfər zamanı "Rumıniya İqtisadiyyat, Ticarət və Biznes Mühiti Nazirliyi və Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyi arasında enerji sahəsində əməkdaşlığa dair anlaşma memorandumu" imzalanmışdır.

**10-14 aprel 2010-cu** ildə sənaye və energetika naziri N.Əliyev və xarici işlər nazirinin müavini X.Xələfov Buxarestdə səfərdə olmuşlar. 13 aprel 2010-cu ildə Azərbaycan, Gürcüstan və Rumıniya arasında "Mayeləşdirilmiş təbii qaz və onun nəqli sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu" imzalanmışdır. Səfər çərçivəsində X.Xələfov Rumıniya Xarici İşlər Nazirliyinin dövlət katibi D.Kostea ilə görüşmüş və XİN-lərarası məsləhətləşmələr keçirilmişdir.

**14 fevral 2011-ci ildə** sənaye və energetika naziri N.Əliyev AGRİ- mayeləşdirilmiş təbii qaz əlaqələndiricisi layihəsi üzrə Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstanın nazirlər iclasında iştirak etmək məqsədilə Rumıniyada səfərdə olmuşdur.

**16 may 2011-ci ildə** AR sənaye və energetika naziri N.Əliyev AGRİ layihəsi üzrə Buxarestdə keçirilmiş Azərbaycan-Gürcüstan-Rumıniya-Macarıstan nazirlər görüşündə iştirak etmişdir.

**31 oktyabr 2011-ci ildə** AR Dövlət Neft Şirkətinin prezidenti R.Abdullayev

Rumıniyada səfərdə olmuş, Botoşani şəhərində SOCAR brendi ilə fəaliyyət göstərəcək bir neçə yanacaq doldurma məntəqəsinin açılışında iştirak etmişdir. Ümumilikdə, Botoşani, Suçeava, İaşi və Neamt vilayətlərində 11 yanacaqdoldurma məntəqəsi istifadəyə verilmişdir.
**23-26 noyabr 2011-ci il tarixlərində** Rumıniyanın kommunikasiyalar naziri Valerian Vreme Bakutel-2011 konfrans və sərgisində Rumıniyanın stendinin təqdimatı məqsədilə ölkəmizdə səfərdə olmuşdur.
**21 dekabr 2011-ci ildə** Bakıda YAP-ın təşkilatçılığı ilə keçirilmiş "Modernləşmə strategiyası: qlobal siyasətin və iqtisadiyyatın müasir çağırışları" mövzusunda konfransda Rumıniyanın Sənaye Sahələrinin İnkişafı Agentliyinin prezidenti Marçel Hoaran iştirak etmişdir.
**17-20 oktyabr 2012-ci** il tarixində Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Aqrar siyasət məsələləri şöbəsinin müdiri Azər Əmiraslanov Rumıniyada səfərdə olmuşdur. Səfər zamanı Rumıniya Kəndə Təsərrüfatı və Regional İnkişaf Naziri və Nazir müavini ilə görüşlər keçirmişdir.

***İqtisadi sahədə əsas sazişlər:***

1. Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında ticarət-iqtisadi əlaqələri və elmi-texniki əməkdaşlıq haqqında Saziş. Buxarest, 2 iyul 1995

2. Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında ticarət gəmiçiliyi haqqında Saziş. Bakı, 27 mart 1996
   **Azərbaycan Respublikasının 408-IQ saylı, 12 dekabr 1997-ci il tarixli Qanunu ilə təsdiq edilmişdir.**

3. Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında beynəlxalq avtomobil daşımaları haqqında Saziş. Bakı, 27 mart 1996
   **Azərbaycan Respublikasının 409-IQ saylı, 12 dekabr 1997-ci il tarixli Qanunu ilə təsdiq edilmişdir.**

4. Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında beynəlxalq qarışıq daşımalar haqqında Saziş. Bakı, 30 iyun 1998
   **AR XİN-nin 278-11 saylı, 4 mart 2002-ci il tarixli Notası təqdim edilmişdir.**
   **Rumıniya tərəfinin 319 saylı, 27 fevral 2002-ci il tarixli Notası göndərilmişdir.**
   **29 mart 2002-ci il tarixindən qüvvəyə minmişdir.**

5. Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında investisiyanın təşviqi və qarşılıqlı qorunması haqqında Saziş. Bakı, 29 oktyabr 2002
   **Azərbaycan Respublikasının 526-IIQ saylı, 5 dekabr 2003-cü il tarixli Qanunu ilə təsdiq edilmişdir.**

**Bu barədə AR XİN-nin 5/11-2077/03 saylı, 30 dekabr 2003-cü il tarixli Notası təqdim edilmişdir.**
**Rumıniya tərəfinin 1409 saylı, 27 noyabr 2003-cü il tarixli Notası göndərilmişdir.**
**29 yanvar 2004-cü il tarixindən qüvvəyə minmişdir.**

6. Azərbaycan Respublikası və Rumıniya arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergitutmadan yayınmanın qarşısının alınması haqqında Konvensiya. Bakı, 29 oktyabr 2002
**Azərbaycan Respublikasının 525-IIQ saylı, 5 dekabr 2003-cü il tarixli Qanunu ilə təsdiq edilmişdir.**
**Bu barədə AR XİN-nin 5/11-2075/03 saylı, 30 dekabr 2003-cü il tarixli Notası təqdim edilmişdir.**
**Rumıniya tərəfinin 1408 saylı, 27 noyabr 2003-cü il tarixli Notası göndərilmişdir. 29 yanvar 2004-cü il tarixindən qüvvəyə minmişdir.**

7. Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş. Buxarest, 11 oktyabr 2004;
**Azərbaycan Respublikasının 844-IIQ saylı, 4 mart 2005-ci il tarixli Qanunu ilə təsdiq edilmişdir.**
**Bu barədə AR XİN-nin 5/11-947/03 saylı, 4 may 2005-ci il tarixli Notası təqdim edilmişdir.**
**3 iyun 2005-ci il tarixindən qüvvəyə minmişdir.**

8. Ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə Azərbaycan-Rumıniya Hökumətlərarası Müştərək Komissiyasının təşkili və fəaliyyəti üzrə Əsasnamə. Buxarest, 7 oktyabr 2004
**Azərbaycan Respublikası Prezidentinin 613 saylı, 3 fevral 2005-ci il tarixli Sərəncamı ilə təsdiq edilmişdir.**

9. Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi və Rumıniya Kiçik və Orta Müəssisələr və Kooperativlər Milli Agentliyi arasında əməkdaşlıq Memorandumu. Bakı, 11 oktyabr 2006

10. 2002-ci il oktyabrın 29-da Bakıda imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Rumıniya Hökuməti arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında Saziş"ə dəyişikliklər edilməsi barədə Əlavə Protokol. Bakı, 11 oktyabr 2006

11. 1995-ci il iyulun 2-də Buxarest şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında ticarət-iqtisadi əlaqələri və elmi-texniki

əməkdaşlıq haqqında Saziş”ə dəyişikliklər edilməsi barədə Əlavə Protokol. Bakı, 11 oktyabr 2006

*Humanitar sahədə əməkdaşlıq*

2001-ci ildən etibarən Rumıniya-Azərbaycan Dostluq Cəmiyyətinin təşəbbüsü və Azərbaycanın Rumıniyadakı səfirliyinin dəstəyi ilə iki xalqın ədəbiyyatının görkəmli nümunələrindən 50-dən çox kitab Azərbaycan və rumın dillərində nəşr olunmuşdur;
Buxarest şəhərinin Tey parkında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və Bakı şəhərində tanınmış rumın bəstəkarı Corce Eneskunun büstləri ucaldılmışdır.

**10 may 2000-ci** ildə Bakıda Rumıniya-Azərbaycan Mədəni Əlaqələr Birliyi və Konstansada Füzuli adına Azərbaycan-Rumıniya Mədəniyyət Cəmiyyəti yaradılmışdır.
**16-20 iyun 2002**-ci ildə Milli Elmlər Akademiyasının Prezidenti M.Kərimov Rumıniya Elmlər Akademiyasının Prezidenti Y.Simeonun dəvəti ilə Rumıniyaya səfər etmişdir.
**25-29 yanvar 2003-**cü ildə Bakı Dövlət Universitetinin rektoru, Qara Dəniz Universitetləri Şəbəkəsi təşkilatının prezidenti A.Məhərrəmov və Azərbaycan Texniki Universitetinin rektoru H.Məmmədov Rumıniyaya səfər etmişlər.
**1-15 mart 2003-cü ildə** Rumıniyanın insan hüquqları müdafiəsi Təşkilatının Prezidenti Florentin Skaletskinin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycana səfər etmişdir.
**9 may 2003-cü ildə** Azərbaycanın Prezidenti H.Əliyevin siyasi həyat və fəaliyyətinə, Azərbaycan-Rumıniya əməkdaşlığının inkişafına həsr olunmuş "Azərbaycanın dirçəlişi" kitabı Rumıniyada ingilis dilində çap olunmuşdur.

Rumıniyanın Ployeşt Neft Qaz Universitetində **2004-cü ilin oktyabr ayından** etibarən üç tələbəyə, 2007-ci ildən Buxarest Texniki və İnşaat Universitetinin dörd əlaçı tələbəsinə aylıq Heydər Əliyev təqaüdü verilir;
**23 iyul 2005-ci** ildə Rumıniyanın daşqından zərər çəkmiş Qalats bölgəsinin İveşt qəsəbəsinə Azərbaycan hökuməti səfirliyimizin vasitəsilə zəruri yardım ləvazimatları, ərzaq və tibb məmulatları ilə yardım göstərmişdir.
**7-10 avqust 2006-**cı il tarixlərində Buxarest şəhərinin II sektorunun meri N.Ontsanunun başçılıq etdiyi nümayəndə heyəti Bakıda səfərdə olmuşdur. Səfər zamanı N.Ontsanu Heydər Əliyev Fondunda, Yeni Azərbaycan Partiyasında, Bakı şəhər icra hakimiyyətində, Səbail rayon icra hakimiyyətində, Rumıniya-Azərbaycan Dostluq Cəmiyyətində, Azərbaycan-Rumıniya Parlamentlərarası dostluq qrupunun

üzvləri ilə görüşlər keçirmişdir. Həmçinin N.Ontsanunu Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev qəbul etmişdir.

**24-25 aprel 2007**-ci il tarixlərində Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin nümayəndə heyəti diaspor quruculuğu sahəsində əməkdaşlığın genişləndirilməsi və Rumıniyada Azərbaycan və türk diaspor təşkilatlarının fəaliyyətinin səmərəliyinin artırılması məqsədilə Rumıniyada səfərdə olmuşdur.

**22-25 oktyabr 2007-ci** ildə Bakı şəhəri Sabayıl rayonunun icra başçısı S.Ələkbərov Buxarest şəhərinin II sektorunun meri N.Ontsanunun dəvəti ilə Rumıniyaya səfər etmişdir.

**31 iyul 2008-ci ildə** Azərbaycan Respublikasının Rumıniyadakı səfirliyinin kollektivi, Rumıniya-Azərbaycan Dostluq Cəmiyyətinin sədri, Heydər Əliyev Fondunun Rumıniya nümayəndəliyinin direktoru, Rumıniya-Azərbaycan Ticarət və Sənaye Palatasının üzvləri və Rumıniyada yaşayan Azərbaycan icmasının nümayəndələri Rumıniyanın şimalında yerləşən və güclü daşqından ağır zərər çəkən Suçava bölgəsinə səfər etmiş və yerli əhaliyə zəruri humanitar yardım göstərmişlər.

**2009-cu ilin 3-9 avqust** tarixlərində Buxarest şəhəri 2-ci sektorunun meri N.Ontanunun rəhbərliyi altında 16 nəfərlik nümayəndə heyətinin Azərbaycana səfəri həyata keçirilmişdir.

**2009-cu ilin 15-16 oktyabr** tarixlərində Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev Rumıniya Konstitusiya Məhkəməsinin sədrinin dəvəti ilə Avropa Şurası Konstitusiya Məhkəmələri Konfransı Təşkilatının Konstitusiya Məhkəmələri Sədrlərinin 15-ci iclasında iştirak etmək məqsədilə Rumıniyaya səfər etmişdir.

**2009-cu ilin noyabr ayında** Heydər Əliyev Fondu, Fondun Rumıniyadakı nümayəndəliyi və Buxarest şəhərinin ikinci sektorunun meriyasının dəstəyi ilə "Gənclər arasında mədəniyyətlərarası mübadilə" layihəsi həyata keçirilmişdir.

**02-11 dekabr 2009-cu ildə** Bakı şəhərində keçirilmiş Yeniyetmələrin VI Beynəlxalq Elm Olimpiadasında Rumıniyadan 3 şagird iştirak etmişdir.

**1-5 fevral 2010-cu ildə** AR Mədəniyyət və Turizm Nazirliyinin elm və təhsil şöbəsinin elmi-metodiki sektorun müdiri A.Usubəliyev və Mingəçevir Turizm Kollecinin direktoru Ə.Əyyubov Rumıniyada səfərdə olmuşlar. Səfər zamanı Mingəçevir Turizm Kolleci və "Andrey Barsyanu" İqtisadi Kolleci arasında əməkdaşlıq üzrə müqavilə imzalanmışdır.

**17-18 iyun 2010-cu ildə** Heydər Əliyev Fondunun təşəbbüsü ilə akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun, Azərbaycan millət vəkillərinin, Rumıniyadakı Türkologiya və Mərkəzi Asiya araşdırmaları İnstitutunun və Rumıniyadakı Səfirliyimizin təşkilatçılığı və dəstəyi ilə Rumıniyanın Kluj-Napoka şəhərində "Şərq və Qərb arasında dialoq" mövzusunda beynəlxalq konfrans keçirilmişdir. Tədbirdə millət vəkilləri Gövhər Baxşəliyeva, Gültəkin Hacıbəyli və Fazil Mustafa iştirak etmişlər və Türkologiya və Mərkəzi Asiya araşdırmaları İnstitutu ilə akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutu arasında əməkdaşlıq memorandumu imzalanmışdır.

**24 noyabr 2010-cu ildə** Rumıniyanın “Balcanii si Europa” (Balkanlar və Avropa) jurnalı tərəfindən ilin yekunlarına görə baş nominasiya üzrə “İlin adamı – 2010” mükafatının Azərbaycan Respublikasının Prezidentinə təqdim olunması haqqında qərar qəbul edilmişdir.
**26 fevral – 1 mart 2011-ci ildə** AR Prezidentinin “Balcanii şi Europa” jurnalı tərəfindən “İlin adamı – 2010” mükafatına layiq görülməsi ilə əlaqədar, jurnalın baş direktoru K.Roman, NİRO İnvestment Group şirkətinin rəhbəri N.Dumitru Bakıya səfər etmiş, AR Prezidentinə mükafatı təqdim etmişlər.
**14-15 aprel 2011-ci ildə** AR mədəniyyət və turizm naziri Ə.Qarayev Cənub-Şərqi Avropa Mədəniyyət Nazirləri Şurasının iclasında iştirak etmək üçün Buxarestdə səfərdə olmuşdur.
**26 iyul 2011-ci ildə** Rumıniyanın Azərbaycandakı səfiri Nikolay Ureke Azərbaycan-Rumıniya arasında əməkdaşlıq və qarşılıqlı əlaqələrin möhkəmləndirilməsində xüsusi xidmətlərinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən “Dostluq” ordeni ilə təltif olunmuşdur.
**27-30 iyul 2011-ci ildə** Rumıniyanın mədəniyyət və milli irs naziri Kelemen Hunor Azərbaycanda səfərdə olmuşdur.
**10-11 oktyabr 2011-ci ildə** Rumıniyanın keçmiş Prezidenti E.Konstantinesku Bakıda təşkil olunmuş beynəlxalq humanitar forumda iştirak etmişdir.
**12 oktyabr 2011-ci** ildə Buxarestdə Heydər Əliyev Fondunun təşəbbüsü və maliyyə dəstəyi ilə rumın dilində çapdan çıxmış “İrəvan xanlığı” kitabının təqdimat mərasimi keçirilmişdir.
**13 oktyabr 2011-ci** ildə səfirliyimiz tərəfindən AR-ın müstəqilliyinə həsr olunmuş rəsmi qəbul keçirilmiş və ziyafətdə Rumıniyanın sabiq xarici işlər naziri T.Bakonski, sabiq prezident E.Konstantinesku da iştirak etmişdir.
**2011-ci ilin 13-27 oktyabr** tarixlərində Rumıniyanın Ployeşt Neft və Qaz Universitetindən və Buxarest Texniki İnşaat Universitetindən ümummilli lider Heydər Əliyevin adına təqaüdə layiq görülmüş 7 tələbənin Azərbaycana səfəri təşkil olunmuşdur.
**13 dekabr 2011-ci il** tarixində Buxarestdə Qara dəniz-Xəzər dənizi Əməkdaşlığı və Tərəfdaşlığı üzrə Beynəlxalq Fondun fəaliyyətinin 2011-ci ilin sonuna olan yekunları ilə bağlı iclas və qəbul keçirilmiş, Fondun səmərəli fəaliyyətinə verdikləri daimi dəstəyə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Rumıniya Prezidenti T.Basesku Fondun ideya müəllifləri kimi təltif edilmişlər.
**9 oktyabr 2012-ci il** tarixində Azərbaycan Respublikasının Rumıniyadakı səfirliyinin təşəbbüsü və Heydər Əliyev Fondunun Rumıniya nümayəndəliyinin dəstəyi ilə Ermənistanın Azərbaycana qarşı təcavüzü, eləcə də onun köklərindən bəhs edən, Kanadanın “Escript de Corps” dərgisinin redaktrou, hərbi jurnalist Skot Teylorun müəllifi olduğu “Barışmaz fərqliliklər: Türkiyə, Ermənistan, Azərbaycan” və Quram Marxulia və Şəbnəm Hacıyevanın birgə müəllifi olduqları “Əzabkeş Ermənistan: mif və gerçəkliklər” kitablarının rumın dilinə tərcüməsinin təqdimatı keçirilmişdir.

**25 may 2012-ci il** tarixində AR-ın müstəqilliyinə həsr olunmuş rəsmi qəbul keçirilmiş və ziyafətdə Rumıniya Prezidentinin təhlükəsizlik məsələləri üzrə müşaviri Yulian Fota iştirak etmişdir.
**04-05 oktyabr 2012-ci il** tarixində Rumıniyanın keçmiş Prezidenti E.Konstantinesku Bakıda təşkil olunmuş beynəlxalq humanitar forumda iştirak etmişdir.

***Humanitar sahədə əsas sazişlər:***

1. Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında elm, təhsil, mədəniyyət və idman sahələrində əməkdaşlıq haqqında Saziş. Buxarest, 2 iyul 1995
   **AR XİN-nin 1571 saylı, 12 oktyabr 2000-ci il tarixli Notası göndərilmişdir.**
   **Rumıniya tərəfinin 628 saylı, 3 oktyabr 2000-ci il tarixli Notası təqdim edilmişdir.**
   **3 oktyabr 2000-ci il tarixindən qüvvəyə minmişdir.**

2. Azərbaycan Respublikası dövlət elm və texnika Komitəsi ilə Rumıniya Tədqiqatlar və Texnologiya Nazirliyi arasında elmi-texniki əməkdaşlıq haqqında Saziş. Bakı, 27 mart 1996

3. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə Rumıniyanın Səhiyyə Nazirliyi arasında Səhiyyə və Tibb elmləri sahəsində əməkdaşlıq haqqında 1996-2000-ci illər üçün Saziş. Bakı, 27 mart 1996
   "AzərTac" Dövlət Teleqraf Agentliyi ilə Rompes Nəşr Agentliyi arasında əməkdaşlıq haqqında Saziş. Bakı, 30 iyun 1998

4. Rumıniya Akademiyasının və Azərbaycan Elmlər Akademiyasının arasında əməkdaşlığa dair Protokol. Buxarest, 17 iyun 2002
   **İmzalandığı andan qüvvəyə minmişdir.**

5. Azərbaycan Respublikası Təhsil Nazirliyi və Rumıniya Təhsil və Tədqiqatlar Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş. Buxarest, 11 oktyabr 2004;
   **Azərbaycan Respublikası Prezidentinin 618 saylı, 7 fevral 2005-ci il tarixli Sərəncamı ilə təsdiq edilmişdir.**
   **Bu barədə AR XİN-nin 5/11-327/03 saylı, 23 fevral 2005-ci il tarixli Notası təqdim edilmişdir.**
   **Rumıniya tərəfinin 367 saylı, 24 fevral 2005-ci il tarixli Notası göndərilmişdir.**
   **23 fevral 2005-ci il tarixindən qüvvəyə minmişdir.**

6. "Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi ilə Rumıniya Milli Arxivi arasında arxiv işi sahəsində əməkdaşlıq haqqında Saziş. Buxarest, 11 oktyabr 2004;

**Azərbaycan Respublikası Prezidentinin 618 saylı, 7 fevral 2005-ci il tarixli Sərəncamı ilə təsdiq edilmişdir.**
**Bu barədə AR XİN-nin 5/11-327/03 saylı, 23 fevral 2005-ci il tarixli Notası təqdim edilmişdir.**
**Rumıniya tərəfinin 367 saylı, 24 fevral 2005-ci il tarixli Notası göndərilmişdir.**
**23 fevral 2005-ci il tarixindən qüvvəyə minmişdir.**

7. "Azərbaycan Respublikası Dövlət Teleradio Verilişləri Şirkəti və Rumıniya Televiziya Qurumu arasında Əməkdaşlıq Sazişi. Buxarest, 11 oktyabr 2004;
   **Azərbaycan Respublikası Prezidentinin 618 saylı, 7 fevral 2005-ci il tarixli Sərəncamı ilə təsdiq edilmişdir.**

8. "Bakı Dövlət Universiteti (Azərbaycan), Buxarest Lazer, Plazma və Radiasiya Fizikası üzrə Milli İnstitutu (Rumıniya) və Konstansa "Ovidius" Universitetinin Mikro və NANO strukturlar üzrə Fənlərarası Tədqiqat Mərkəzi (Rumıniya) arasında əməkdaşlıq haqqında Saziş Buxarest, 11 oktyabr 2004;

9. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Rumıniyanın Mədəniyyət və Dini İşlər Nazirliyi arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş. Bakı, 11 oktyabr 2006

10. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Rumıniyanın Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmləri sahəsində əməkdaşlıq haqqında Saziş, 18 aprel 2011, Bakı, **AR Prezidentinin 450 nömrəli, 7 iyun 2011-ci il tarixli Fərmanı ilə təsdiq edilmişdir.**